LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Vətəndaş cəmiyyəti ilə genişləndirilmiş siyasət dialoqu üçün Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna dəstək



İcra müddəti: 01.01.2024 - 31.12.2026

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 4 500 000

Ümumi büdcə: € 4 764 979

Sosial media hesablarına keçidlər:

facebook.com/eapcsf/, linkedin.com/company/5289641/admin/page-posts/published/, https://x.com/eapcsf, instagram.com/eapcsf/

Internet səhifəsi: eap-csf.eu/

Layihənin təsviri:

2009-cu ildə yaradılmasından etibarən Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu (ŞT VCF) vətəndaş cəmiyyətinin regional səviyyədə özünütəşkilinin unikal modelini nümayiş etdirərək ŞT üzrə siyasətin icrasında əsas maraqlı tərəf kimi özünü təsdiq etmişdir. ŞT VCF altı Şərq Tərəfdaşlığı ölkəsinin (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) və ŞT regionunda aktiv fəaliyyət göstərən Aİ vətəndaş cəmiyyəti təşkilatlarını (VCT-lər) bir araya gətirərək təcrübə mübadiləsi və tərəfdaşlıq quruculuğu üçün platforma rolunu oynayır. ŞT VCF Şərq Qonşuluğunun Avropa dəyərlərinə və standartlarına sadiq, vətəndaş cəmiyyətinin demokratik idarəçiliyin tərkib hissəsi, demokratik islahatların fəal iştirakçısı və daha geniş regionda demokratik keçid prosesi üzrə təcrübə mənbəyi olduğu demokratik, firavan və sülh şəraitində olan bir regiona çevrilməsi istiqamətində çalışır. ŞT VCF tərəfdaş ölkələrin demokratik transformasiyası və Avropaya inteqrasiyası istiqamətində Aİ və ŞT-in qərar qəbul edən şəxsləri ilə konstruktiv dialoq qurur. Forum bu dialoq çərçivəsində Şərq Tərəfdaşlığı siyasətinin planlaşdırılması, monitorinqi və icrası prosesində vətəndaş cəmiyyətinin effektiv iştirakını təmin edir.

Gözlənilən nəticələr:

1. ŞT VCF üzvlərinin texniki və daxili potensialının artırılması.
2. ŞT VCF üzvləri üçün qərarvermə prosesində maraqların müdafiəsi məqsədilə onların imkanlarının genişləndirilməsi.